**Azərbaycan Dövlət İqtisad Universiteti**

**«Beynəlxalq İqtisadi Münasibətlər» kafedrası**

# DÜNYA İQTİSADİYYATI



**i.e.d., prof. Hacızadə Elşən Mahmud olğu**

**BAKI - 2011**

# Qlobal *demoqrafik* problem

## Mövzunun planı

*1.Problemin nəzəri-konseptual əsasları.*

*2.Qlobal demoqrafik prosesin ümumi xarakteristikası.*

*3.Demoqrafik partlayış və onun iqtisadi nəticələri.*

*4.Demoqrafik problemin həlli yolları.*



# Demoqrafiya

**«Demoqrafiya»nın**

(yunanca - ***demos*** - xalq və ***grapho*** - yazıram)
- obyekti - əhali haqqında elm.




**Demoqrafiya** öyrənir:

- *əhali sayı, doğum və ölüm göstəricilərinin dəyişməsi;*
- *miqrasiya;*
- *yaş strukturu;*
- *milli tərkib;*
- *əhalinin coğrafi yerləşməsi, onun sosial-iqtisadi, tarixi və digər amillərdən asılılığını.*

# **Demoqrafiya** *nəzəriyyəsi*

**Demoqrafiya** əhali nəzəriyyəsini, əhali siyasətini işləyib hazırlayır. Ölkə, şəhər, vilayət, region və bütünlüklə Yer kürəsi əhalisinin dəyişməsi perspektivini verir.

**Demoqrafiyanın** bir çox ictimai elmlər: sosiologiya, siyasi iqtisad, tarix, hüquq, etnoqrafiya, sosial gigiyena, statistika və digərləri ilə sıx baglılığı vardır.



**«Demoqrafiya»** terminini elmi məzmunda ilk dəfə fransız alimi Jan Klod Aşil Qiyar (*1799-1856*) dövriyyəyə 1855-ci ildə çıxartmışdır.

**Demoqrafik** təbəddülatları əks etdirən mülahizələrə A.Qiyardan da öncə 1662-ci ildə ingilis alimi Con Qrauntanın (*1620-1674*) əsərlərində rast gəlinmişdir.

Buna baxmayaraq **Demoqrafiya** elminin kolumbu **Aşil Qiyar** sayılır

# «Əhali artıqlığı» qanunu

**İngilis iqtisadçısı - demoqraf Tomas Robert Maltus (*1766-1834*) daha çox iqtisad aləmində «Əhali artıqlığı» qanununu işləməklə şöhrət tapmışdır.**



**T.Maltusun fikrincə bitki və heyvanat aləmində olduğu kimi, insan cəmiyyətində də öz sərəncamında olan qidanın kəmiyyətinə varmadan istifadəsini təmin etmək instinkti vardır.**

**T.Maltus təsdiqləyirdi ki, əhali həndəsi (*1,2,4,8,16,32,64 və s.)* silsilə, yaşayış vasitələri isə ədədi (*1,2,3,4,5,6,7 və s.)* silsilə ilə tərəqqi edir.**

**İki yüz ildən sonra bu nisbət 256-nın 9-a, üç yüz ildən sonra isə 1096-nın 13-ə ekvivalentində olacaqdır. Buradan daha bir fikir də hasil olunurdu kı, əgər əhali artıqlığı qanunu təbiidirsə, onda yoxsulluğu heç bir sistem bölgüsü xilas etməyəcəkdir**

# **Əhali** *artımının tsiklilik nəzəriyyəsi*

İtalyan iqtisadçısı, statistik və demoqrafı Korrado Cinni (*1884-1965*) sələfi T.Maltus kimi əhali artımının tsiklilik nəzəriyyəsi ilə məhşurdur.



K.Cinnini tsiklilik nəzəriyyəsinə görə hər bir əhali qrupu iqtisadi inkişafla bağlı üç - *sürətli artım*, *stasionar vəziyyətə qədər yavaşıma* və *ixtisarlaşma* fazalarından keçir.

Üçüncü fazaya keçiddə K.Cinni xarici iqtisadi faktorlardan istifadəni məsləhət bilir. O, bu yanaşmanın normal iqtisadi inkişafı patoloji vəziyyətdən ayırmağa yardım etdiyi qənaətini bölüşür.

# Demoqrafiya - Doğum əmsalı

**Doğum əmsalı**

**il ərzində 1000 nəfərə düşən doğulanların sayı.**

**Bir millətin 25 ildən çox yaşaması üçün doğum əmsalı 2,11 dən kiçik olmamalıdır.**

**2007-ci ildə doğum əmsalı:**

- ***Fransa 1,8,***
- ***İngiltərə 1,6,***
- ***Yunanıstan 1,3,***
- ***Almaniya 1,3,***
- ***İtaliya 1,2,***
- ***İspaniya 1,1.***



# **Əhalinin** *təkrar istehsalı*

## **Demoqrafik** *partlayış*

**Əhalinin** *təkrar istehsalı*

- doğum, ölüm və miqrasiya nəticəsində əhalinin fasiləsiz təzələnməsi prosesi.



**Əhalinin** *təkrar istehsalı* doğum, ölüm və miqrasiya ilə təyin edilir.

**Demoqrafik** *partlayış* təyin edilmiş ərazidə çox yüksək olan əhali artımı.

# Dünya əhalisi



*On min* il bundan öncə Yer kürəsində
5000 insan yaşadığı ehtimal edilir.

Bizim eranın əvvəllərində dünya əhalisi təqribən
150-200 milyon nəfər olmuşdur.

Bizim eranın 1000-ci ilinə yaxın isə
300 milyonu olmuşdü.

Yer kürəsinin əhalisi:

- 1850-ci il 1 *milyard;*
- 1930-cu il 2 *milyard;*
- 1960-cı il 3 *milyard;*
- 1976-cı il 4 *milyard;*
- 1987-ci il 5 *milyard;*
- 1999-cu il 6 *milyard;*
- 2011-cu il 7 *milyard.*



# Dünya əhalisi

**Dünya əhalisinin** 90%-i inkişaf etməkdə olan ölkələrin payına düşür.

**Dünya əhalisinin** 60%-dən çoxu sayı 100 milyondan çox 10 nəhəng ölkədə yaşayır:

**Dünya əhalisinin** ən çoxsayl əhalisi olanı ölkələri:

| | | |
|---|---|---|
| ***Çin*** | ***1300*** | ***milyon nəfər;*** |
| ***Hindistan*** | ***1100*** | ***milyon nəfər;*** |
| ***ABŞ*** | ***270*** | ***milyon nəfər;*** |
| ***İndoneziya*** | ***210*** | ***milyon nəfər;*** |
| ***Braziliya*** | ***170*** | ***milyon nəfər;*** |
| ***Rusiya*** | ***150*** | ***milyon nəfər;*** |
| ***Pakistan*** | ***150*** | ***milyon nəfər;*** |
| ***Yaponiya*** | ***135*** | ***milyon nəfər;*** |
| ***Banqladeş*** | ***130*** | ***milyon nəfər;*** |
| ***Nigeriya*** | ***130*** | ***milyon nəfər.*** |



# ***Planetar*** məskunlaşma



***Milli tərkibi köklü*** - **avtoxon** etnosa və ***imiqrasiyadan yaranmış*** *etnoslara* bölürlər**.**

***Planetin*** məskunluğu bərabər ölçülü deyildir və quru hissəsinin - Antarktida və əksər Qrenlandiya adası daxil olmaqla təxminən 10%-i «**oykumena»ya** (*yunanca* - oikuméē, *məşkun, yaşanılan yer*) - yer kürəsinin insan tərəfindən məskunlaşmış sahələrinə aiddir.

***Planetin*** quru hissəsinin yarısında 1 kv km-ə 1 adam, 1/4 hissəsində 10 adam və qalan hissəsində isə 10 adamdan çox əhali düşür.

***Planetin*** sıx əhali arealına 1 kv km-ə 50 adam düşməklə Mərkəzi Avropa, Şərqi-Çin, Yaponiya, Cənubi Amerika əraziləri və Hind-Qanq, Nil çayları vadiləri fərqlənir.

***Planetin*** əhalisinin hazırda yarıdan bir qədər çoxu kənd ərazilərində yaşayır.

# **Demoqrafik** *proseslərin coğrafi sferasının strukturu*

**Dünya əhalisinin** təxminən 70%-i quru parçasının 8%-lik sahəsində cəmləşmişdir.

**Dünya əhalisinin** 60%-i ***planetin*** şimal yarımkürəsində yaşayır



**Dünya əhalisinin** 30%-i dəniz sahili ərazisində məskunlaşmışdır.

Hazırda **əhalinin** məskunlaşma arealı dağlara tərəf genişlənməkdədir.

# Urbanizasiya, Ruralizasiya, Aqlomerasiya

**Urbanizasiya** - *(latınca* - urbanus - *şəhər)* cəmiyyətin inkişafında şəhərlərin rolunun artması prosesi - kənd əhalisinin şəhərə axını.

**Urbanizasiyanın** müqəddəm şərtləri - sənayenin inkişafı, mədəni və siyasi funksiyaların genişlənməsi, əməyin ərazi bölgüsünün dərinləşməsi.

**Urbanizasiya prosesi yaranır:**



- ***Şəhər əhalisinin təbii artımı;***
- ***Kənd yaşayış məntəqələrinin şəhərə qovuşması;***
- ***Geniş şəhərətrafı ərazilərin yaranması;***
- ***Kənd ərazilərindən şəhərə miqrasiya.***

**Ruralizasiya - şərəhdən kəndlərə axın - Urbanizasiya prosesinin əksi.**

**Aqlomerasiya** - *(latınca* - agglomerare - *birləşdirmək, yığmaq)* - kompakt yerləşmə.

**Aqlomerasiya** - yalnız məkan anlamında deyil, həmçinin istehsalın, mədəniyyətin, rekreasiyanın rabitəli üstün inkişafı ilə birləşmiş məkunlaşma qruplaşmasıdır.

Termin üstün olaraq şəhər məskunlaşma tipinə *(şəhər aqlomerasiyası)* aid edilir.

# Urbanizasiya



**Urbanizasiya** prosesləri Asiya,
Latın Amerikası və Afrikada daha surətli tempdədir.

**Suburbanizasiya - Urbanizasiyanın** növbəti mərhələsi - İnsanların artan rifahı onlara şəhər ətrafında «kənd yaşayış tipli» evlərin tikilməsinə imkan yaradır və onlar kəndlilərə çevrilmədən praktiki olaraq şəhərdə işləməyə davam edirlər.

**Urbanizasiya**

| İllər | Milyondan çox insanın yaşadığı şəhərlərin sayı. | Bütün əhali sayında payı (%) |
|---|---|---|
| 1900 | 220 | 13 |
| 1950 | 740 | 29 |
| 1970 | 1350 | 36 |
| 1990 | 2280 | 43 |
| 2025 (*proqnoz*) | Orta hesabla 5000 | Orta hesabla 61 |

# Miqrasiya, Emiqrasiya, İmiqrasiya

**Miqrasiya** - (latınca - *migratio* - köçmə, yerləşmə) insanların bu və ya digər səbəblərdən yaşayış yerini dəyişərək bir yerdən başqa yerə köçməsi prosesi.

**Miqrasiya** daxili və xarici növlərə malikdir.

**Miqrasiyanın** səbəbləri müxtəlif ola bilər və o, əksərən iqtisadi vəziyyətlə bağlıdır.




**Emiqrasiya** və **İmiqrasiya** anlayışları **Miqrasiya** anlayışının paronimləri kimi çıxış etsələr də birmənalı olan konkret interpretasiyaya malik deyillər.

**Emiqrasiya** öz ölkəsindən daimi və ya uzunmüddətli yaşayış üçün dıgər bir ölkəyə köçməsi.

**İmiqrasiya** **Emiqrasiyanın** əksi prosesi.

# Miqrasiya

*Planetar* **Miqrasiya** *1965-ci ildəki 70 milyondan 2009-cu ildə 170 milyona çatmışdır.*

*Çağdaş zamanda 40 milyondan çox əhali öz ölkələri xaricində yaşayırlar.*

*İnkişaf etməkdə olan ölkələrdə 2025-ci ildə 2,5 milyard işçi qüvvəsinin olacağı ehtimal edilir.*

*Üçüncü ölkələrdə əhali artımı və məhdud iqtisadi durum* **Qastarbayterlərin** *(almanca - gast+arbeiter qonaq işçi) - zəif inkişaf etmiş ölkədən yüksək inkişaf etmiş ölkələrə fəhlə axınını gücləndirir.*

*İzafi iş yerləri olduğu şəraitdə müəyyən işçilər -* **Qastrolyorlar** *-tez-tez iş yerlərini dəyişirlər.*



# Demoqrafik keçid
# Demoqrafik yüklən



- Demoqrafik keçid - Doğum və ölüm göstəricilərinin sürətli aşagı düşməsi ilə nəsillərin dəyişməsi.
- Demoqrafik keçid –ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid doğum göstəricilərinin ölüm göstəricilərini üstələməsi ilə xarakterikdir.
- Demoqrafik yükləmə əmsalı - əhalinin yaşlı strukturunun ümumiləşdirilmiş ketfiyyət göstəricisi olmaqla cəmiyyətdəki qeyri-məhsuldar əhalı yükünü göstərir.
- Demoqrafik yükləmə əmsalı hesablanır - uşaqların və təqayüd yaşıda olanların əmək qabiliyyətili əhali sayına nisabəti ilə.

# **Demoqrafik** inkişaf:
## *reallıqlar və proqnozlar*

- **Bütün bəşəri tarix ərzində yaşamış insanların sayı 90 milyard hesablanır.**
- **1950-ci ildə 80-dən artıq yaşı olanların sayı 1%, 65-dən çox olanların sayı 8%, 14 yaşa qədər olanların sayı 35% olmuşdur.**
- **Proqnozlara görə 2150-ci ildə yaşlı əhali sayı ümumi əhalinin 40%-ni təşkil edəcək və proses ölkələrin inkişaf konfiqurasiyasından asılı olmayaraq müəyyən fərqlərlə hamı üçün eyni olacaqdır.**
- **XXI əsrin sonunda planetin əhali sayı 14-15 milyarda çatmaqla sabitləşmə əldə edəcəkdir. Demoqraflar hesab edirlər ki, bu sabitlik sürəkli olacaqdır.**



# İşsizlik

İnkişaf etmiş ölkələrdə *işsizliyi* əsasən «işçi qüvvəsi» arasındakı mövcud işsizliklə ölçürlər.



Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatlarına əsasən dünyada hazırda 3,2 milyard işçi qüvvəsi vardır.

BƏT-in məlumatlarında hazırda dünyada 200 milyondan çox *işsizin* olduğu bildirilir. Bununla belə müvafiq statistikaya görə inkişaf etməkdə olan dövlətlərdə 1 milyarda qədər əhali qismən işsiz sayılır.

*İşsizlik* hazırda Yaponiyada 2%, ABŞ-da 6%, Avropada 9%-dir.

*İşsizlikdən* qurtulmaq üçün isə hər gün 140 min iş yerinin açılması gərəkdir.

# **Demoqrafik** inkişaf senarisi

**Məhşur rus alimi Sergey Kapisa (*1928*) planetin demoqrafik tarixi inkişaf ssenarisini tədqiq edərkən, son dörd minilliyin tərəqqi düzümünü ifadə edən dialektik sistem yaratmışdır.**

**Aparılan təhlilin nəticələrindən biri də odur ki, zamanla əhali kəmiyyəti arasında simmetrik riyazi uzlaşma mövcuddur:**



- I. **Bizim eradan 2000 il əvvəl və eramızın V əsri (*Roma imperiyasının çökməsinə qədər*) əhatə olunan dövr 2500 il.**
- I. **Orta əsrlər dövrü 1000 il.**
- II. **Yeni tarix dövrü 300 il.**
- III. **Ən yeni tarix zamanı 120 il.**

**Bölgüyə nəzər etdikdə görürük ki, hər növbəti mərhələ əvvəlkinə nisbətdə 2,5-3 dəfə kiçik və hər mərhələdə zaman ölçüsü gödəlməkdədir.**

**Bu məntiqə görə növbəti - V mərhələ 90 ildən artıq olmayacaqdır.**

**Yeni zaman kəsiyini isə bəşəriyyətin milyon illik yaş durumu fonunda bir an kimi qiymətləndirmək olar.**

**Çağdaş nəsil bu zaman məqamının qatı ortasında qərar tutmuş və həmən dövrün orta hissəsi 2000-ci ilə təsadüf etmişdir.**

# Əsas anlayışlar

- ***Demoqrafiya;***
- ***Doğum əmsalı;***
- ***Oykumena;***
- ***Urbanizasiya;***
- ***Suburbanizasiya;***
- ***Ruralizasiya;***
- ***Aqlomerasiya;***
- ***Miqrasiya;***
- ***İşsizlik.***



# T Tə Ə k K r R a A r R



1. *«Əhali artıqlığı» qanunu;*
2. *Əhali artımının tsiklilik nəzəriyyəsi;*
3. *Dünya əhalisi və planetar məskunlaşma;*
4. *Əhalinin təkrar istehsalı;*
5. *Demoqrafik  partlayış;*
6. *Demoqrafik proseslərin coğrafi sferasının strukturu;*
7. *Demoqrafik inkişaf ssenariləri.*

# Mövzunun ədəbiyyat siyahısı


1. **Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006. 509 s.**
2. **Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi, Bakı: Elm, 2007. 295 s.**
2. **Мировая экономика** (*под редакцией проф. Ю.А.Щербина*). **М.: ЮНИТИ-Д, 2004. 318 с.**
3. **Ломакин В.К. Мировая Экономика. М.: ЮНИТИ, 2007, 672 с**
4. **Хасбулатов, Р. И. Мировая экономика и международные экономические отношения. М.: Гардарики, 2006. 671 с.**
5. **Социально-экономическая география зарубежного мира, М.: Крон-Пресс, 1998, 592 с.**
6. **Борисов В. А. Демография - М.: Издательский дом NOTABENE, 2001. - 272 с.**
7. **Кудров В.М. Мировая экономика. М.: БЕК, 2004, 464 с.**
8. **Якобсон А. Я., Максимов И. М. Лекции по мировой экономике: Учебное пособие. Иркутск: ИрГУПС, 2006. 87 с.**

# Son



# TƏŞƏKKÜR EDİRİK!



# Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı ş. İstiqlaliyyət 6, ADİU, I mərtəbə,
Otaq No. 000
Tel: (+99412) 492 – 31 – 21
(+99412) 492 – 62 – 64
E-mail: elshan@mail.az
Veb sayt www.hajizadeh@narod.ru

